

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 163 (21.824)

*29 avqust 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Oxunması zəruri olan kitablar haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitabların siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq təhsil və mədəniyyət müəssisələrinin kitabxanalarında müvafiq kitab guşələri yaradılsın.

3. Ali Məclisin Aparatı oxunması zəruri olan kitabların siyahısının zənginləşdirilməsi işini diqqətdə saxlasın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 avqust 2017-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir***

## Oxunması zəruri olan kitabların Siyahısı

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti
2. "Kitabi-Dədə Qorqud" dastanı
3. "Atalar sözü" (Azərbaycan xalq ədəbiyyatı)
4. Nizami Gəncəvi. "Sirlər xəzinəsi". Poema
5. "Nizaminin hikmət və nəsihətləri"
6. Nəsirəddin Tusi. "Əxlaqi-Nasiri"
7. Məhəmməd Tağı Sidqi. "Məktəb hekayələri"
8. Hüseyn Cavid. "Azər". Poema
9. Cəlil Məmmədquluzadə. "Hekayələr"
10. Məmməd Səid Ordubadi. "Qılınc və qələm". Roman
11. Qurban Səid. "Əli və Nino". Roman
12. Məmmədhüseyn Şəhriyar. "Heydərbabaya salam". Poema
13. "Təmsillər" (uşaq ədəbiyyatı)
14. ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu
15. Faruk Sumer. "Oğuzlar"
16. Rəşidəddin Fəzlullah. "Oğuznamə"
17. Yusif Balasaqunlu. "Qutatqu bilik"
18. Teodor Drayzer. "Dahi". Roman
19. Cek London. "Həyat eşqi". Hekayə
20. Ernest Heminquey. "Qoca və dəniz". Povest
21. Nikolo Makiavelli. "Hökmdar"
22. Gi de Mopassan. "Gombul"
23. Antuan de Sent-Ekzüperi. "Balaca şahzadə"
24. Nikolay Ostrovski. "Polad necə bərkidi". Bioqrafik roman
25. Moris Meterlink. "Arıların həyatı" və "Göy Quş" əsərləri
26. "Mister Hemferin xatirələri". (İngilis casusunun etirafları)
27. Seyid Əzim Şirvani. "Seçilmiş əsərləri". (Təmsillər)
28. "İslamda müdrik kəlamlar"
29. Sədi Şirazi. "Gülüstan"
30. Eynəli bəy Sultanov. "Məqalələr"

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Avqustun 26-da Naxçıvan Muxtar Respublikasında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunur, qarşıda duran vəzifələr müəyyənləşdirilir. Ölkə Prezidentinin himayəsi ilə Naxçıvana təbii qazın verilməsi, yeni elektrik stansiyalarının qurulması və enerji təhlükəsizliyinin təmin olunması, əhalinin ilboyu dayanıqlı təbii qaz, elektrik enerjisi və içməli su ilə təmin olunması, istilik sistemlərinin yenilənməsi, yaşayış məntəqələrində aparılan quruculuq işləri və yaradılan şərait payız-qış mövsümündə müşahidə olunan problemləri aradan qaldırmışdır. Lakin muxtar respublikanın iqlim şəraiti nəzərə alınaraq payız-qış mövsümünə hazırlıq tədbirləri hər il diqqətdə saxlanılmalı, mövcud infrastruktur daha da təkmilləşdirilməli və müvafiq tədbirlər həyata keçirilməlidir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının baş naziri Əlövsət Baxşıyev, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Ramin İsmayılov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış etmişlər.

Əlahiddə Ümumqoşun Ordu komandanı Kərəm Mustafayev, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov və Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi Tofiq Həsənov payız-qış mövsümünə hazırlığın vəziyyəti və görülən işlər barədə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Hər bir ölkənin, regionun sosial-iqtisadi inkişafı enerji təhlükəsizliyinin təmin olunmasından asılıdır. Uzun müddətdən bəri blokada şəraitində yaşayan və kəskin iqlim şəraitinə malik olan muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyətə malikdir. Ümummilli liderimizin, hal-hazırda isə ölkə Prezidentinin göstərdiyi qayğı nəticəsində muxtar respublikada enerji təhlükəsizliyi təmin olunub. Buna baxmayaraq muxtar respublikada payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır, əvvəlki dövrlərdə yol verilən nöqsanlar və çatışmazlıqlar aradan qaldırılır. Bu gün muxtar respublikada enerji tutumlu yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, əhali məskunlaşmasında müşahidə olunan artım, yaşayış səviyyəsinin yaxşılaşması təbii olaraq elektrik enerjisinə və qaza olan tələbatı da artırır. Bu tələbatı ödəmək, istehlakçıları fasiləsiz qaz və elektrik enerjisi ilə təmin etmək üçün infrastrukturun yenilənməsi diqqət mərkəzində saxlanılır. Bundan əlavə, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün də müvafiq işlər görülür. Bu gün Naxçıvan şəhəri ilə yanaşı, Şahbuz və Culfa rayon mərkəzləri və ətraf kəndləri fasiləsiz içməli su ilə təmin edilir. Digər rayon mərkəzlərində də bununla bağlı tədbirlər görülür. Görülmüş işlər muxtar respublika sakinlərinin rahat yaşayışının təmin olunması, normal iş şəraitinin yaradılması üçündür. Bu rahatlığın qış aylarında da qorunub saxlanılması, yarana biləcək problemlərin aradan qaldırılması üçün mövsümə hazırlıq işlərinə indidən başlamalı, lazımi mal-material ehtiyatı yaratmalıyıq.

Ali Məclisin Sədri demişdir ki, Dövlət Energetika Xidməti elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün mövcud infrastrukturun yenilənməsini davam etdirməli, istismar üçün yararsız olan, standartlara uyğun gəlməyən, bəzi hallarda isə qəzaların baş verməsinə səbəb olan avadanlıq və xətlərin vaxtında müəyyən edilərək dəyişdirilməsinə diqqəti artırmalı, qış mövsümünə hazırlıqla bağlı transformator və yarımstansiyaların oktyabrın 20-dək texniki baxışdan keçirilməsini başa çatdırmalıdır. Energetika sisteminin normal fəaliyyəti üçün tələb olunan mal-materialın, avadanlıqların alınıb gətirilməsi və onların zəruri ehtiyatının yaradılması diqqət mərkəzində saxlanılmalı, qəza-bərpa briqadalarının komplektləşdirilməsi noyabr ayınadək yekunlaşdırılmalı, elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimum həddə saxlanması üçün tədbirlər görülməli, elektrik verilişi xətləri yeraltı kabellərlə əvəz olunmalıdır. Enerji israfçılığının və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması üçün aid orqanlarla birlikdə nəzarət tədbirləri davam etdirilməli, bütün istehlakçı qrupları üzrə istifadə olunan enerjinin dəyərinin toplanması təmin olunmalı, işçilərin qış mövsümünə uyğun xüsusi geyimlə təminatı üçün tədbirlər görülməlidir.

"Naxçıvanqaz" İstehsalat Birliyi oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxışı yekunlaşdırmalı, mövcud nasazlıqların aşkar edilərək aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidir. Təbii qazın şaxtalı hava şəraitində nəqli üçün hazırlıq işləri vaxtında başa çatdırılmalı, istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanmalı, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülməli, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndirilməli, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanılması təmin edilməlidir. Qaz təsərrüfatında, xüsusilə qaza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılmalı, qış mövsümü başlayanadək işçilərin müvafiq geyim və avadanlıqlarla təmin olunması həyata keçirilməlidir.

Ali Məclisin Sədri demişdir ki, şəhər və rayon icra hakimiyyətləri cari il noyabr ayının 1-dək bütün qazanxanaların qış mövsümünə hazırlıq işlərini başa çatdırmalı, elektrik enerjisi, təbii qaz və su təchizatı sahəsində mövcud problemləri araşdırıb nöqsanları aradan qaldırmalı, ictimai yaşayış binalarının giriş qapı və pəncərələrinin, zirzəmilərdən keçən istilik, su və kanalizasiya xətlərinin istismar üçün yararlılığını yoxlayıb, müvafiq tədbirlər

*Ardı 2-ci səhifədə*

görməlidirlər. Qış mövsümündə yolların təmizlənməsi üçün kommunal xidmət texnikalarının saz vəziyyətdə saxlanılmasına diqqət artırılmalıdır.

Qeyd olunmuşdur ki, son illər aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, muxtar respublikanın əksər təhsil, səhiyyə və mədəniyyət müəssisələri, idman obyektlərinin isə hamısı istilik sistemi ilə təchiz olunub. Lakin hələ də bəzi müəssisə və təşkilatların binalarının qızdırılmasında maye qaz və neft məhsullarından istifadə olunur. Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi həmin müəssisələrin qış mövsümündə fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maye qaz və neft məhsullarının tədarükünü və satışını davam etdirməli, zəruri yanacaq ehtiyatının yaradılması üçün müvafiq tədbirlər həyata keçirməlidir. Payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin fasiləsiz fəaliyyəti aid nazirliklər və yerli icra hakimiyyətləri tərəfindən təmin olunmalıdır. Səhiyyə Nazirliyi əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təminatına nəzarəti gücləndirməlidir.

Maliyyə Nazirliyi istilik sistemi olmayan müəssisələrə qış mövsümündə tələb olunan mal-materialın alınması üçün lazımi maliyyə vəsaitinin ayrılmasını, həmçinin dövlət müəssisələrində enerji daşıyıcılarından istifadə zamanı borc qalığının yaranmamasını diqqətdə saxlamalıdır. Büdcədən maliyyələşən bütün dövlət müəssisə və təşkilatları elektrik enerjisi və təbii qazdan qənaətlə istifadə etməli, israfçılığa yol verməməli, istehlak olunan qazın və enerjinin dəyəri vaxtında ödənilməlidir. Nəqliyyat Nazirliyi qış aylarında xəttə buraxılacaq nəqliyyat vasitələrinin qrafik üzrə hərəkətinə, Daxili İşlər Nazirliyi ilə birlikdə həmin nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə olmasına nəzarəti gücləndirməlidir. Avtomobil Yolları Dövlət Şirkəti magistral yollarda qum ehtiyatı yaradılmasını təmin etməli, yolların qardan təmizlənməsi üçün texnikaların işlək vəziyyətdə olmasına nəzarəti artırmalıdır.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Beynəlxalq Hava Limanı bütün maşın-mexanizmlərin, elektrik və işıqlandırma sisteminin, rabitə qurğularının texniki baxışını vaxtında yekunlaşdırmalı, tələbata uyğun yanacaq və mal-material ehtiyatının yaradılmasına nail olmalıdır. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti dəmir yolu nəqliyyatında hərəkətin təhlükəsizliyini təmin etməli, vaqonlara və lokomotivlərə texniki baxış keçirməli, yol təsərrüfatının saxlanmasına, material ehtiyatının yaradılmasına diqqəti artırmalıdır. Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri mövsümi qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması ilə bağlı hazırlıq tədbirlərinə başlamalı, bütün ocaqçılar müvafiq kurslara cəlb olunmalıdırlar. Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət komitələri standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verməməli, bununla əlaqədar istehlakçılar və sahibkarlar əvvəlcədən məlumatlandırılmalıdırlar.

Tapşırılmışdır ki, İqtisadiyyat Nazirliyi mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünü təşkil etməli, qəbul olunmuş meyvə-tərəvəzin saxlanılması üçün müvafiq texnoloji şəraitin yaradılmasına nəzarəti artırmalıdır. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Baytarlıq Xidməti ilə birlikdə heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə əlaqədar maarifləndirmə tədbirlərini həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqətdə saxlamalıdırlar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin təminatı üçün tədbirlər görməlidir. Hərbi hissələr üçün yun corabların toxunması işi bu il də davam etdirilməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi poçt və rabitə xidmətlərinin fəaliyyətini daha da gücləndirməli, mal-material ehtiyatının yaradılmasını təmin etməlidir. Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin istiliklə fasiləsiz təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan ehtiyatların, eləcə də sərhəd zonalarındakı hərbi hissələrin yanacaqla təchizatı və ərzaq ehtiyatının yaradılması vaxtında başa çatdırılmalıdır. Əlahiddə Ümumqoşun Ordusunun komandanlığı Naxçıvan Qarnizonu üzrə qışa hazırlığın vəziyyətini araşdırıb, Ali Məclisə məlumat verməlidir. Şəhər və rayon icra hakimiyyətləri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi qurumuş ağacların kəsilərək hərbi hissələrə verilməsini, payız mövsümündə yeni yaşıllıqların salınmasını təşkil etməlidirlər. Muxtar respublikanın bitki və heyvanat aləminin qış aylarında qorunması üçün müvafiq tədbirlər görülməlidir. Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları və aidiyyəti təşkilatlar birlikdə qış mövsümündə elektrik enerjisi və təbii qaz sayğaclarına müdaxiləyə, sayğacdankənar istifadə hallarına qarşı reydlərin keçirilməsini davam etdirməlidirlər.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır ki, istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrində payız-qış mövsümü üçün tələb olunan yanacağın bölgüsünü təsdiq etsin və payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası barədə cari ilin oktyabr ayının sonunadək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binası istifadəyə verilmişdir





Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün komitə əməkdaşları üçün əlamətdar gündür. Ona görə ki, yaxşı iş şəraiti yaxşı əhval-ruhiyyə və keyfiyyətli iş deməkdir. Hər bir müstəqil ölkədə dövlət idarəetməsi müxtəlif strukturlar tərəfindən həyata keçirilir. Düzgün idarəetmə isə o ölkədə mümkün olur ki, həmin ölkədə inkişaf və sabitlik təmin edilsin. Müstəqil Azərbaycan dövləti də dünya ölkələri sırasında öz layiqli yerini tutub, düzgün idarəetmə sistemi yaradılıb, sabitlik və hərtərəfli inkişaf təmin edilib. Çünki Azərbaycanda müstəqilliyin və dövlətçiliyin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub və bu gün ölkə Prezidenti bu yolu uğurla davam etdirir.

Ali Məclisin Sədri demişdir: Ölkəmiz üçün vacib strukturlardan biri də Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsidir. Komitə fəaliyyətini üç istiqamətdə – standartlaşdırma, metrologiya və patent sahələri üzrə həyata keçirir. Standartlaşdırma sahəsində fəaliyyət məhsulların istehsalı, daşınması, satışı, xidmətlərin göstərilməsi zamanı standartların gözlənilməsinə dövlət nəzarətinin həyata keçirilməsindən, eləcə də məhsulların standartlara uyğunluğuna dair sertifikatların verilməsindən ibarətdir. Metrologiya sahəsində dövlət metroloji nəzarətinin həyata keçirilməsi, ölçmə vasitələrinin dövlət sınaqlarının aparılması, patent sahəsində isə əmtəə nişanları, coğrafi göstəricilər, ixtira, faydalı model, sənaye nümunələrinə patent və şəhadətnamələrin verilməsi əsas fəaliyyət istiqamətləridir.



Ali Məclisin Sədri qarşıda duran vəzifələrdən danışaraq demişdir: Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi daxili bazarı qorumalı, aid təşkilatlarla birlikdə keyfiyyətsiz və ya saxtalaşdırılmış məhsulların istehsalı, satışı və idxalına yol verməməlidir. İstehsal olunan yerli məhsulların ixracını stimullaşdırmaq məqsədilə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunluğu diqqət mərkəzində saxlanılmalı, istifadə olunan ölçmə vasitələrinin dəqiqliyinə nəzarət edilməli, metroloji qayda və normalara uyğun olmayan ölçmə vasitələrinin istismarının, istehsalının və satışının qadağan edilməsinə nail olunmalıdır. Həmçinin komitə qablaşdırılmış mallar üzərində dövlət metroloji nəzarətini təmin etməli, patent fondunun komplektləşdirilməsini, əmtəə nişanlarının, coğrafi göstəricilərin, elmi-texniki nailiyyətlərin, yeni texnologiya və avadanlıqların qeydə alınmasını, hüquqi mühafizəsi və onlardan istifadə sahəsində səlahiyyətinə aid edilmiş vəzifələrin icrasını davam etdirməlidir.

Qeyd olunmuşdur ki, sınaq laboratoriyalarının qanunvericiliyə uyğun fəaliyyət göstərmələrinə diqqət artırılmalı, məhsulların və ya xidmətlərin təhlükəsizliyi və keyfiyyəti, eləcə də ölçmələrin dəqiqliyi haqqında istehlakçıların məlumatlandırılması təmin edilməlidir. Bundan başqa, istehsal və xidmət sahələrində, iaşə obyektlərində, uşaq bağçalarında və məktəb yeməkxanalarında standartların gözlənilməsi ilə bağlı monitorinqlər davam etdirilməli, yaradılanlar qorunmalı, kollektiv həvalə olunmuş vəzifələrin icrasında səyini artırmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında komitə əməkdaşlarına uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov çıxış edərək demişdir ki, muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi üzrə tədbirlər uğurla həyata keçirilir. Sakinlərin keyfiyyətli məhsul və xidmətlərə çıxış və seçim imkanlarının yaxşılaşdırılmasına dair verilmiş tapşırıqlara uyğun olaraq istehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartlara uyğun aparılır. Komitənin ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılması da daim diqqət mərkəzindədir. Yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bəxtiyar İsmayılov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmiş, fəaliyyətin səmərəli təşkili üçün daha səylə çalışacaqlarını bildirmişdir.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 56 iş otağı, akt zalı, 2 laboratoriya, reyestr və kadastr saxlama otağı, kitabxana, arxiv, təlim-treninq otağı, ölçmə vasitələrini yoxlama otaqları, standartlar üzrə informasiya otağı, standart və patent fondu, eləcə də mətbəə və yeməkxana yerləşir. Laborato-

*Ardı 3-cü səhifədə*





riyalarda elektrik, təbii qaz və su sayğaclarının yoxlanılması, eləcə də təzyiq, temperatur, çəki və həcm ölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıqlar quraşdırılmışdır.

Binada əsas və ehtiyat server, 12 dəst kompüter, 14 çap qurğusu, 2 videoproyektor və 1 elektron lövhə quraşdırılmışdır. Xidməti işin səmərəliyini və operativliyini yüksəltmək üçün yeni Elektron Sənəd Dövriyyəsi Sistemi və daxili şəbəkə istifadəyə verilmişdir. Təhlükəsizlik normalarına uyğun olaraq inzibati binanın yaxınlığında məişət qaz avadanlıqlarının sınaq laboratoriyası yaradılmış, laboratoriya yeni qaz analizatorları və qaz detektorları ilə təmin edilmişdir. Sifarişçilərin yoxlamaya təqdim etdiyi ölçmə vasitələrinin ilkin mərhələdə saxlanılması üçün ərazidə yarımqapalı yerlər hazırlanmış, avadanlıqların binaya daşınması üçün 3 yeni forkliftlər alınmışdır. Binanın həyətində abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemi quraşdırılmış, 15 yerlik avtomobil dayanacağı tikilmişdir.

Ali Məclisin Sədri istehsal müəssisələrində və xidmət sahələrində maarifləndirmə və izahat işlərinin davam etdirilməsi, səmərələşdirici təkliflərin hazırlanması və patentlərin verilməsi sahəsində fəaliyyətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Tankçılarımız uğurlu nəticə qazanıb

***Böyük təşkilatlanma yolu keçən Əlahiddə Ümumqoşun Ordunun tankçıları verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirirlər. Təlimlərdə tankçılarımızın təyin olunmuş hədəfləri ilk atəşlə məhv etmələri onların döyüş hazırlığının yüksək səviyyədə olmasından xəbər verir. Onlar beynəlxalq tədbirlərdə də iştirak edərək uğurlu nəticələrə imza atırlar.***



Bu il iyul ayının 29-dan avqustun 12-dək Rusiya Federasiyasının Alabino təlim mərkəzində keçirilən Beynəlxalq Ordu Oyunları çərçivəsində 19 ölkədən 57 tank heyətinin iştirak etdiyi “Tank biatlonu” müsabiqəsində Azərbaycan tankçıları uğurlu nəticə göstəriblər. Yarışda Əlahiddə Ümumqoşun Ordunun tankçıları da iştirak edib. Azərbaycan Silahlı Qüvvələrini təmsil edən 3 tank heyəti sırasında Əlahiddə Ümumqoşun Ordunun tankçılarından gizir Əlikərəm Bədəlov və gizir Ceyhun Şıxzadayev də iştirak edib. Azərbaycan tankçıları hədəfləri ustalıqla vurub, manevrləri bacarıqla keçib, yüksək idarəçilik qabiliyyəti nümayiş etdirərək 19 ölkə arasında 5-ci yerdə qərarlaşıblar.

“Tank biatlonu” müsabiqəsində yüksək peşəkarlıq göstərən Əlahiddə Ümumqoşun Ordunun tankçıları gizir Əlikərəm Bədəlov yarışa cəlb olunan şəxsi heyət arasında ən yaxşı tank komandiri, gizir Ceyhun Şıxzadayev ən yaxşı tuşlayıcı-operatoru seçilib. Mükafatlandırma mərasimində yarışın rəhbərliyi tərəfindən gizir Əlikərəm Bədəlova dostluq medalı və qiymətli hədiyyə təqdim edilib.

Qeyd edək ki, gizir Əlikərəm Bədəlov 1992-ci ildə Hacıqabul rayonunda anadan olub. 2011-ci ildə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecini bitirib. 2011-2013-cü illərdə əsgər kimi həqiqi hərbi xidmət keçən Əlikərəm tank bölməsində tuşlayıcı vəzifəsində xidmət edib. Həmin vaxtdan Əlikərəm Bədəlovda tankçı ixtisasına maraq yaranıb və hərbi xidmətdən sonra yenidən ordu sıralarına qayıtmaq istəyən bu gənc Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursuna cəlb edilib. Tankçı ixtisasına yiyələnən gizir Əlikərəm Bədəlov 2013-cü ildən Əlahiddə Ümumqoşun Orduda tank komandiri vəzifəsində xidmət edir. İstər əsgər kimi, istərsə də ki, gizir kimi xidməti dövründə həmişə nümunəvi xidməti ilə valideynlərinə və komandirlərinə başucalığı gətirən Əlikərəm Bədəlov qarşıya qoyulmuş tapşırıqları vaxtında və dəqiq yerinə yetirən döyüşçü kimi formalaşıb. Öz ixtisasını mükəmməl mənimsəyərək peşəkar tankçı kimi yetişən gizir Əlikərəm Bədəlov xidməti müddətində bir sıra uğurlara imza atıb. Onun sonuncu uğuru isə Beynəlxalq Ordu Oyunları çərçivəsində təşkil olunan “Tank biatlonu” müsabiqəsində olub.

Söhbət zamanı gizir Əlikərəm Bədəlov dedi: “Müasir tanklar ən yeni silahlarla təchiz edilmiş döyüş maşınlarıdır. Tankların möhkəm, davamlı zirehi, güclü dizel mühərrikləri, müasir idarəetmə cihazları vardır. Tank bölmələri uzaq məsafələrə sürətli yürüş etmək, düşmənin müdafiə xəttini yararaq yüksək templə hücum etmək imkanlarına malikdir. Bütün bunlar da tankçıları məğlubedilməz edir. Bizi yenilməz edən təkcə istifadəmizdə olan tanklar deyil, həm də keçirilən məşğələ və təlimlərdə qazandığımız yüksək mənəvi ruh, fiziki və döyüş hazırlığıdır. Beynəlxalq Ordu Oyunlarında uğur qazanmağımız aparılan məqsədyönlü işin, keçirilən təlimlərdə əldə etdiyimiz təcrübənin bəhrəsidir. Sevincli və qürurluyam”.

Digər tank komandiri gizir Ceyhun Şıxzadayev 1988-ci ildə Bakı şəhərində anadan olub. Tam orta məktəbi bitirdikdən sonra 2007-2009-cu illərdə əsgər kimi həqiqi hərbi xidmət keçib. Vətənə olan sevgisi və hərbi xidmətə böyük marağı onu gizir hazırlığı kursuna yazılmağa sövq edib. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra 2010-cu ildən Naxçıvan Muxtar Respublikasında davam etdirməkdədir. Xidməti dövründə müxtəlif təltiflərə layiq görülüb, o cümlədən “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 95 illiyi” yubiley medalı ilə təltif edilib. Gizir Ceyhun Şıxzadayevin sonuncu nailiyyəti isə Beynəlxalq Ordu Oyunları çərçivəsində təşkil olunan “Tank biatlonu” müsabiqəsində olub. Həmin müsabiqədə ən yaxşı tuşlayıcı-operatoru adına layiq görülüb.

Gizir Ceyhun Şıxzadayevin dediklərindən: “Döyüşdə qələbə qazanmaq üçün döyüşçü öz silahını və döyüş texnikasını mükəmməl bilməli, onları həmişə döyüşə hazır vəziyyətdə saxlamalı və bacarıqla işlətməlidir. Buna görə də bütün döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək üçün bizə təhkim edilmiş silah və texnikanın sirlərinə yaxından bələd olur, onları saz vəziyyətdə saxlamağa çalışırıq. Nəticədə isə təlim və yarışlarda uğurla iştirak edirik. İstər döyüş atışlı taktiki təlimlərdə, istərsə də bir neçə gün əvvəl Rusiya Federasiyasında keçirilən Beynəlxalq Ordu Oyunları çərçivəsində təşkil olunan “Tank biatlonu” müsabiqəsində nailiyyət qazanmağımız döyüş hazırlığı planına uyğun olaraq keçirilən dərslərdə əldə etdiyimiz təcrübə sayəsində mümkün olub. Təbii ki, bütün bunlar bizi hərbi xidmətə daha da ruhlandırır”.

Ötən il keçirilən “Tank biatlonu” müsabiqəsində də gizir Əlikərəm Bədəlov və gizir Ceyhun Şıxzadayev iştirak edərək uğur qazanmışdılar. Həmçinin ötən il onlarla bərabər Əlahiddə Ümumqoşun Ordunun digər bir tankçısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Tural Mərdanlı da iştirak etmişdi. İstər ötənilki yarışlarda istərsə də, builki yarışlarda tankçılarımız böyük uğura imza atıblar.

Onu da qeyd etmək yerinə düşər ki, Beynəlxalq Ordu Oyunlarında və bu yarışlar çərçivəsində təşkil olunan “Tank biatlonu” müsabiqəsində Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri ötən ildən iştirak edirlər. Həm 2016-cı ildə ilk dəfə, həm də bu il ikinci dəfə iştirak etməyimizə baxmayaraq, hərbi qulluqçularımız ən yaxşı nəticə göstərənlər sırasında olurlar. İşğalçı erməni ordusunun nümayəndələrinin də iştirak etdiyi yarışlarda bizim hərbi qulluqçularımız düşməni hər dəfə üstələyir. “Tank biatlonu” müsabiqəsində bir neçə ölkənin tankçıları öz tankları ilə iştirak etsələr də, Azərbaycan tankçıları püşkatma yolu ilə onlara düşmüş tanklarla uğurlu nəticə göstərir, yüksək peşəkarlıq nümayiş etdirirlər. Deməli, beynəlxalq yarışlarda düşməndən qat-qat güclü olduğunu sübut edən tankçılarımız döyüş meydanında da düşməni məhv etməyə qadirdirlər.

Tankçılarımız döyüş hazırlığı planına uyğun olaraq keçirilən dərs, məşğələ və təlimlərdə fəal iştirak edərək yenilməz döyüşçü kimi formalaşır, yüksək mənəvi-psixoloji, fiziki və döyüş hazırlığına yiyələnirlər. Bu gün Əlahiddə Ümumqoşun Ordunun əsgərləri təkcə yarış və təlimlərdə deyil, real döyüşlərdə də zəfər çalmağa hazırdırlar.

**Nəriman NƏCƏFOV**

# Məktəbli yarmarkasında qələbəlik müşahidə olunur

***Yeni dərs ilinin başlanmasına çox az vaxt qalıb. Bu günlərdə məktəbli uşağı olan hər valideyni bir məsələ düşündürür. Uşağına lazım olan məktəbli ləvazimatlarını hardan əldə etsin ki, qiyməti sərfəli, özü də keyfiyyətli olsun. Bu mənada, muxtar respublikamızda keçirilən ənənəvi məktəbli yarmarkalarının əhəmiyyəti böyükdür. Artıq bir neçə gündür ki, yarmarkaya start verilib.***



Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda keçirilən məktəbli yarmarkasında hər il olduğu kimi, bu il də qələbəlik müşahidə edilir. Məktəbli yarmarkasında 3-ü istehsal müəssisəsi olmaqla, 21 sahibkarlıq subyekti iştirak edir. Burada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabıları, digər ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur. Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışı da həyata keçirilir. Burada lüğət və digər nəşrlərin, dünya uşaq ədəbiyyatı nümunələrinin, bədii və elmi ədəbiyyatların satışına da yer verilib.

Bəs alıcılar bu yarmarkadan necə istifadə edirlər? Elə bu suala cavab tapmaq üçün adıçəkilən ünvanda olduq, alıcılarla söhbət etdik. Naxçıvan şəhər sakini Nihad Allahverdiyev bildirdi ki, oğlu bu il məktəbin birinci sinfinə qədəm qoyacaq. Buna görə həm sevincli, həm də, necə deyərlər, həyəcanlıdır. Uşağına lazım olan məktəbli ləvazimatlarını haradan alacağı barədə çox düşünməli olub, ta ki bu yarmarkaya gələnədək. Yarmarkada onun seçim etməyi üçün hər cür şəraitin olduğunu vurğulayan müsahibim dedi ki, yaradılan bu imkan bir valideyn kimi onun ürəyincədir, dövlətimizə minnətdardır.

Digər müsahibim isə yarmarkanın imkanlarından geniş istifadə edən Əli Quliyevdir. O, bizimlə söhbətində deyir:

– Məktəbli yarmarkasının keçiriləcəyi günü səbirsizliklə gözləyirdim. Əvvəllər satış mərkəzlərindən istifadə edirdim. Lakin iki ildir ki, yarmarkaya üz tuturam. Burada qiymətlər çox münasibdir. Bu da ailə büdcəmin stabil qalmasına imkan verir. Yarmarkanı təşkil edənlərə ailəmiz adından minnətdarlıq edirəm.

Övladına məktəbli çantası almaq istəyən Məhəmməd Əlimərdanovun sözlərinə görə, yarmarkadakı qiymətlər bazar qiymətlərindən xeyli aşağı, çeşid isə çoxdur:

– Oğlum üçün çanta, kitab, dəftər almağa gəlmişəm. Satılan ləvazimatlar müxtəlif çeşidli olduğuna görə seçim imkanı da genişdir. Məhsulların qiyməti ilə yanaşı, keyfiyyəti də önəmlidir. Ümumilikdə, yarmarkadakı qiymətlər və keyfiyyət hamını qane edir. Burada hər bir alıcıya satılan məhsullar haqda nəzakətlə, dolğun məlumat verilir və bu da rahat şəkildə seçim etmək imkanı yaradır.

Nəvələri üçün məktəbli ləvazimatları alan Zemfira Quliyeva deyir ki, yarmarkada nağıl kitabları və iş dəftərlərinin qiymətləri münasibdir:

– Üç nəvəm var. Onlardan ikisi 2-ci sinifdə oxuyur, biri isə bu il məktəbə gedəcək. Burada uşaqlar üçün ədəbiyyatlar çoxdur. Balaca nəvəmə kiçik nağıllar kitabı aldım. Belə kitabları əvvəllər satış mərkəzlərindən əldə etdiyim üçün deyə bilərəm ki, yarmarkada qiymətlər sərfəlidir. Yaradılan bu şəraitə görə dövlətimizə minnətdaram.

Qeyd edək ki, məktəbli yarmarkası sentyabr ayının 15-dək davam edəcək.

**✍ Nail ƏSGƏROV**

***Günəş həyat mənbəyidir. O, bitib-tükənməyən enerjisi ilə dünyadakı bütün varlıqlar üçün zəruri olan işıq və istiliyi təmin edən, bitkilərdə fotosintez prosesinin getməsinə, insan orqanizmində D vitamininin meydana gəlməsinə birbaşa təsir edən səma cismidir. Günəşli günlərdə insanların şən olması da təsadüfi deyildir. Alimlər sübut ediblər ki, parlaq Günəş şüalarının təsiri ilə insan bədənində "xoşbəxtlik hormonu" deyilən hormonların istehsalı artır, əhval-ruhiyyə yüksəlir.***

*Həkim məsləhəti*

## Gözlərimizi Günəş şüalarından necə qoruyaq?

Amma həddən artıq Günəş şüalarına məruz qalmaq bəzən sağlamlığa zərərli də ola bilər. Xüsusən, hamının çox sevdiyi qızmar yay günlərində Günəşdən gələn zərərli ultrabənövşəyi şüaların təsiri ilə bir çox xəstəliklərin əmələ gəlməsi sürətlənir. Belə ki, uzunmüddətli Günəş şüaları xüsusən yaşıllığı az olan, dəniz səviyyəsindən yüksək ərazilərdə, ekvatora yaxın və kəskin kontinental isti ölkələrdə allergik xəstəliklərə, keratokonus, quru göz sindromu kimi xəstəliklərə səbəb ola bilir. Bəs dünyanın enerji qaynağı olan Günəşin sağlamlığımız üçün yaratdığı bu qədər təhlükələrdən necə qorunmalıyıq?

Bu barədə Naxçıvan Muxtar Respublika Xəstəxanasının Oftalmologiya şöbəsinin həkim-oftalmoloqu Kəmalə Əliyeva ilə həmsöhbət olduq. Həkim bildirdi ki, Günəş şüalarının insan orqanizminə faydası ilə yanaşı, ultrabənövşəyi şüaların zərərli təsirini də yaddan çıxarmamalıyıq. Xüsusən, insanın gözlərinin Günəş şüaları ilə uzun müddət təması nəticəsində görmə qabiliyyətinin zəifləməsi, büllur və torlu qişanın zədələnməsi baş verir. Günəş şüaları el arasında "mirvari suyu" deyilən kataraktanın, "qara su" kimi tanınan qlaukoma xəstəliyinin kəskinləşməsinə və yaranmasına səbəb ola bilər. Bundan əlavə, əgər Günəş şüaları insanda allergiyaya səbəb olursa, o müalicə olunsa belə, yenidən həmin şüalardan qorunmadıqda, bu xəstəlik özünü daha da kəskin şəkildə büruzə verəcək. Əslində isə allergiya xəstəlik olmayıb, onu yaradan səbəbə qarşı orqanizmin cavab reaksiyasıdır. Ona görə də allergiyanı törədən səbəbləri bilmək, ona qarşı hazırlıqlı olmaq lazımdır. Belə ki, isti hava şəraitində daha çox sərinləşdirici kimi kondisionerlərdən istifadə edirik. Bu zaman qapalı məkanlarda gözlərin nəmliyini qoruyub saxlayan göz yaşı normadan çox dehidrafasiyalaşır və nəticədə, quruluq, göynəmə, qaşınma kimi xoşagəlməz hallar gözləri narahat etməyə başlayır. Bu narahatçılığın nisbətən yüngülləşməsi üçün gözləri ovxalayıb, qaşıyırıq ki, adi hesab etdiyimiz bu hərəkətlər də sağlamlıq üçün təhlükəli nəticələrə səbəb ola bilər.

Həkim qeyd edir ki, yay aylarında çoxlarının sərinləmək, istirahət etmək üçün üz tutduğu məkanlardan biri də su hövzələridir. Axar sularda infeksiyalar, yoluxma halları baş vermir, ancaq durğun sularda, xüsusilə də süni yaradılan çarhovuzlarda infeksiyalaşma halı daha çox müşahidə olunur. Buna görə də su hövzələrində infeksiyalardan qorunmaq üçün xüsusi qoruyucu eynəklərdən istifadə etmək lazımdır. Əsasən də kiçikyaşlı uşaqlar qoruyucu eynəklərdən istifadə etməlidirlər. Axı, balacaların gözləri böyüklərin gözləri ilə müqayisədə daha həssasdır və daha çox zərər görə bilər.

Bunlardan əlavə, Günəşin birbaşa təsirindən qorunmaq üçün hər bir kəsin ultrabənövşəyi şüaları keçirməyən gün eynəklərindən istifadə etməsi məsləhətdir. Xüsusən, gündüz 11-16 saatları arasında Günəş şüaları yer səthinə düzbucaq şəklində düşdüyündən bu, çox vacibdir. Həkim onu da vurğulayır ki, müasir dövrümüzdə zərərli şüalardan qorunmaq üçün belə kontaktlinzalar geniş yayılıb. Ancaq eynək seçərkən yalnız zahiri görünüşə deyil, həm də onun rahatlığına fikir vermək lazımdır. Oval formalı, üzə çox yapışan eynəklərdən çəkinmək lazımdır. Allergiyaya meyilli gözlər üçün xüsusi qoruyucu örtüyü olan eynəklər məsləhətdir. Göz xəstəliyi olanlar isə daha çox yaşıl rəngli eynək linzası seçməlidirlər. Çünki qara və yaxud da tünd-qəhvəyi rəng gözlərimizin daxili təzyiqinin artmasına səbəb ola bilər. Həkim onu da qeyd edir ki, gözlərdə quruluq, qaşınma hisslərinin yaranmaması üçün onları tez-tez soyuq su ilə yumaq lazımdır. Qarşıdan gələn payız fəslindəki buludlu havalarda Günəş radiasiyası yarıbayarı azalsa da, qorunmağı yaddan çıxartmaq olmaz.

Gözlərimiz Günəşin aydınlatdığı bu dünyaya açılan pəncərədir. Odur ki, gəlin gözlərimizi qoruyaq ki, dünyanın gözəlliklərini də doyunca seyr edək.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi hansı məsuliyyətə səbəb olur?*

***Cavab:*** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna əsasən, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına (Xarici İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinə) yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Bununla bağlı Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə 28 aprel 2015-ci il tarixli qanunla dəyişiklik edilmişdir. Belə ki, Cinayət Məcəlləsinin 318-2-ci maddəsinə əsasən, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində məlumatın verilməməsi üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

*Sağlam həyat*

## İdman və musiqi: insana motivasiya verən iki əsas amil

***Musiqi bəzən insanda cəsarət, bəzən hərəkətlilik, bəzən də sevinc və kədər yarada bilir. Musiqinin hiss və duyğularımızla uyğunlaşmasını söyləmək mümkündür. İdmanda da bu, belədir. Aparılan araşdırmalar göstərir ki, musiqi tərzlərinin fərqliliyini hiss edən, onu zövqlə dinləyən idmançılar özlərini rahat şəkildə motivasiya etməyi bacarırlar.***

### *Musiqi idmançıya nə qazandırır?*

Musiqi öz xarakterinə görə insanı sakitləşdirir, düşündürür, mübarizəyə çağırır və onda müxtəlif əhval-ruhiyyə təlqin edir. Bu təsir qüvvəsi xalqımızın qədim məhəbbət və qəhrəmanlıq dastanlarında da öz əksini tapıb.

Musiqinin insana verdiyi gözəl təəssürat və hissiyyatlar onun ruhuna təsir edir. Musiqi insan ruhunun emosional oyanışına səbəb olur. Buna görə də musiqi sədaları altında keçirilən məşqdən idmançı sanki yorulmur. Daha dəqiq desək, musiqinin cazibədar sədaları insanın ruhunu qidalandırır, psixoloji gərginliyi aradan qaldırır və onu yüksək nailiyyətlərə ruhlandırır. Bu səbəbdən bütün məşqlərin hazırlıq hissəsinin xüsusi seçilmiş musiqi sədaları altında keçirilməsi məsləhətdir.

Bu zaman maraqlı sual ortaya çıxır: Musiqi idmançıya nə verir?

İdmanda cəld və sürət tələb edən ritmik hərəkətlər olmalıdır. Bu ritm və cəldlik idmançının hərəkətini musiqinin sədaları altında tez bir vaxtda avtomatizmə gətirib çatdırır. Yarışda idmançı musiqi eşitməsə də, onun ruhuna hopmuş bu sədalar altında mübarizəsi coşan çaya bənzəyir. Bu vaxt hərəkətlərdəki elastiklik və mübarizlik sanki musiqi sədaları altında baş verir. Son illər Şərqi Avropa ölkələrinin əksəriyyətində güləşçilər, cüdoçular, taekvandoçular heç bir yorğunluq duymadan musiqi sədaları altında məşq edirlər. Bununla, hiss edilmədən qazanılan müsbət emosiyalar idmançını daim mübarizəyə ruhlandırır. Bu, eyni zamanda idmançıda dözümlülük və fiziki artıma güclü təsir göstərir.

### *İkinci dost*

İdmançıların musiqi olaraq seçdikləri tərzlər, adətən, ritmik olur. Bəzən elə idman sahələri var ki, orda qüvvə və ağırlıq tələb edilir. Bu zaman nisbətən sakitlik olmalıdır. Çox maraqlıdır ki, Avropada dəbdə olan pop və soul musiqiləri, ümumiyyətlə, idman edilərkən dinlənilmir.

Avropalılara görə, musiqi dinləmək, əslində, ikinci bir dostun insanı ruhlandırmasıdır. Elm adamları musiqi ritmlərinin bədən hərəkətlərini sürətləndirdiyini və bunun həm də psixoloji reaksiyalara müsbət istiqamətdə təsir edə biləcəyini açıqlayıblar. "Köln İdman Akademiyası"nın araşdırma qrupunun elmi düşüncələrinə əsasən, həddindən artıq hərəkətli olmaq şərtilə insanı cuşa gətirən musiqilərin seçilərək idman edilməsi idmançılara müsbət təsir göstərir.

İnsanların psixologiyası müxtəlif olduğu kimi, onların musiqi zövqləri də fərqlidir. Amma məsləhət görülür ki, məşqlərdə idmançını motivasiyaedici bir musiqi seçmək lazımdır. Musiqi dinləyərkən məşq etmək həm də bədəndə müəyyən bir kalori sərfi deməkdir.

### *Bizim musiqi və idman*

Məşq zamanı seçilən musiqi bioritmik, sakit və axıcı olmalıdır. Odur ki, bəstəkarlar, adətən, idman yarışları, tədbirləri üçün musiqi yazarkən, onu təkcə yalnız bir yarış üçün yox, daim istifadə olunması üçün nəzərdə tuturlar. Azərbaycanın idman tarixində bəstəkarlarımızın müxtəlif festivallara həsr edilmiş gözəl kantata, musiqiləri var. Musa Mirzəyevin "Gənc idmançılar mahnısı", Niyazi və Rauf Hacıyevin birgə yazdıqları "Festival mahnısı (marş)", Rauf Hacıyevin "Gənclik marşı", Cahangir Cahangirovun "Yürüş mahnısı", "Düşərgə nəğməsi" və digərləri idmanla musiqinin qarşılıqlı əlaqəsindən, vəhdətindən, gəncliyimizin fədakarlığından bəhs edir.

1980-ci ildə Moskvada keçirilən Olimpiada üçün Qara Qarayev və Azər Dadaşov idmançılara həsr edilmiş gözəl kantata yaradırlar. Əsərin musiqisində idmana xas olan fəal marş ritmi, hərəkəti, gümrah və şən əhval-ruhiyyəsi bu gün də özünü müsbət yöndə göstərməkdədir. Göründüyü kimi, musiqi dinləyərək məşq etmək bir çox müsbət vərdişlərin də yaranmasına səbəb olur.

## Futbol birinciliyinin son oyunları böyük marağa səbəb olub

***Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyində növbəti oyunlar keçirilib.***

Sədərək rayonunda qalib komandanın adı artıq məlumdur. Belə ki, həlledici qarşılaşmada Sədərək kənd komandası və "Sədərək-2" komandası üz-üzə gəlib. Daha baxımlı oyun nümayiş etdirən birincilər meydanı 4:0 hesablı qələbə ilə tərk ediblər və birinciliyin baş mükafatını qazanıblar. Digər final görüşü Kəngərli rayonunun mərkəzi stadionunda keçirilib. Final görüşündə Qıvraq kənd komandası Xok kənd komandasının qapısından 5 top keçirib (5:1) və birinciliyi ilk pillədə başa vurub. Sonda hər iki rayonda qalib olan komandalara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən kubok və hədiyyələr təqdim olunub.



Digər bolqollu oyun Şahbuz rayon mərkəzi stadionunda qeydə alınıb. İlk olaraq meydana Kolanı və Nursu kənd komandaları çıxıb. Görüş Kolanı futbolçularının 4:1 hesablı qələbəsi ilə yekunlaşıb. Şahbuzkənd və Kükü kənd komandalarının qarşılaşmasında isə azarkeşlər 10 qola şahidlik ediblər. Bu matçda Kükü futbolçuları meydanı 6:4 hesablı qələbə ilə tərk ediblər.

Şərur rayonunda növbəti mərhələyə Mahmudkənd və Çərçiboğan kənd komandaları yüksəlib. Mahmudkənd stadionunda keçirilən görüşdə meydan sahibləri Kürçülü kənd komandasını (3:2), Aralıq kənd stadionunda isə Çərçiboğan kənd komandası Dizə kənd komandasını (3:1) məğlub edərək, buna müvəffəq olublar.

Babək rayonunda da iki görüş baş tutub. Dairəvi sistem üzrə keçirilən oyunlarda Nehrəm kənd komandası babəkli həmkarlarının müqavimətini qıra bilməyib – 3:3. Nəhəcir kənd komandası isə Sirab kənd komandasının qapısından 3 cavabsız top keçirməyə müvəffəq olub – 3:0.

Culfa rayon Ərəzin kənd stadionunda Bənəniyar kənd komandası Kırna kənd komandasını, Bənəniyar kənd stadionunda isə Ərəzin kənd komandası Əbrəqunus kənd komandasını sınağa çəkib. Bu görüşlərdə Bənəniyar (3:2) və Ərəzin kənd komandaları (6:2) meydanı qələbə ilə tərk ediblər. Ordubad rayonunda keçirilən görüşdə "quru hesab" qeydə alınıb. Belə ki, Aza kənd komandası Kələntər Dizə kənd stadionunda Vənənd kənd komandasını qəbul edib və 3:0 hesablı qələbə qazanıb.

## Üç idmançımızdan 6 müxtəlif əyarlı medal

Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının yetirmələri Kempo Qarışıq Döyüş növü üzrə keçirilən Bakı şəhəri açıq çempionatında iştirak ediblər.

Çempionat gənclər və kişilər arasında olmaqla, iki – döyüş və grappling (güləş – ağrıdıcı fənd tətbiq etmək) versiyaları üzrə keçirilib. Bu yarışda 3 idmançımız mübarizə aparıb və onlar, ümumilikdə, 6 müxtəlif əyarlı medal qazanıblar. Belə ki, döyüş növündə ən uğurlu nəticəni Kamal Həsənov əldə edib. O, bütün rəqiblərinə qalib gələrək çempionatın baş mükafatını qazanıb. Digər idmançılarımız Nurlan Qafarov və Fərəc Quliyev isə müvafiq olaraq çempionatda ikinci və üçüncü olublar.

Grappling növündə (gənclər) 50 kiloqram çəki dərəcəsində Kamal Həsənov yenə fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Kişilərin mübarizəsində Fərəc Quliyev (50 kiloqram) də eyni uğuru təkrarlayıb. 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Nurlan Qafarov isə bu növdə üçüncü olub.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

**✍ Ceyhun MƏMMƏDOV**


### *İtmişdir*

Naxçıvan şəhər sakini Məmmədov Məhərrəm Nağdəli oğlunun adına olan JN-1524$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Yuxarı Daşarx kənd sakini Əsədov İsgəndər Qurban oğlunun adına verilmiş JN-423$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 682